**Qələbənin 75 illik yubileyi ilə bağlı bütün dünyada, eləcə də Azərbaycanda. hər il olduğu kimi, bu il də dövlət səviyyəsində geniş tədbirlər keçirilir. Torpaq uğrunda,Vətən yolunda canından keçən insanların xatirəsini yaşatmaq, əbədiləşdirmək, adını, şöhrətini nəsildən-nəslə çatdırmaq müqəddəs işdir.**

# Torpaq, uğrunda ölən varsa Vətəndir...



*"Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir. 1941-1945-ci illərdə respublikanın 600 mindən çox oğlan və qızları cəbhəyə getmişdir".*

**Heydər Əliyev**

1941-ci ildən 1945-ci ilədək davam edən müharibə zamanı ordu sıralarına Azərbaycandan 720 min nəfərdən çox insan cəlb edildi. Onlardan 320 mindən çoxu vətən uğrunda gedən savaşda qəhrəmancasına həlak oldu. Həlak olanların arasında Göyçə mahalından olan Məhərrəmov İdris Şirin oğlu da var idi. O, 1894-cü ildə Göyçə mahalının Zərkənd kəndində sənətkar ailəsində anadan olub, ilk ustad dərsini 12 yaşında ikən atası Aşıq Şirindən alıb, Aşıq Ələsgərdən, Aşıq Musadan saz-söz sənətinin incəliklərinə yiyələnib. Səksəndən artıq saz havasına bacarıqla yiyələnib, otuz beş dastanı hər dəfə yeni əlavələrlə danışarmış.

Ailə arxivimizdə qorunub saxlanan azərbaycan, rus, erməni dilində olan 1938-1941-ci illəri əhatə edən arayışların verdiyi məlumata görə Aşıq İdris Böyük Vətən müharibəsinə gedənə qədər Basarkeçər rayonunun "Aşıqlar birliyinin" sədri olub. Aşıqların I və II qurultaylarında iştirak edərək İncəsənət xadimi fəxri adına layiq görülüb. 1941-ci ildə könüllü olaraq Böyük Vətən müharibəsinə gedib (baxmayaraq ki, bir neçə dəfə hərbi komissarlıq tərəfindən geri qaytarılıb) və müharibədən itkin düşüb.

Arxiv materialları Aşıq İdrisin həm yaradıcı, həm də ifaçı sənətkar olduğunu, Göyçə mahalında, Kəlbəcər kəndlərində ad çıxardığını, məlahətli zil səsi, səsinin ləngərindən otaqların pəncərə şüşələrinin cingildəşməsi, zənguləsinin zərbindən otuzluq lampanın sönməsindən yazılır.

Döyüşçü aşıq qoşma ilə həyat yoldaşı Zərnişan xanıma göndərdiyi məktubda tezliklə qələbə çalıncağından,övladlarına məhəbbətindən belə yazırdı:

*Zərnişanım, gözlə, gözlə yolumu,*
*Səndən üzülməmiş gümanım mənim.*
*Oğul əmanəti, qız əmanəti-*
*Yaxşı saxla, dinim-imanım mənim.*
*Qoyma ürəyində arzu pasdana,*
*Göz yaşından tər yanağın isdana.*
*Dikilsin yoluma gözün mastana,*
*İstəkli sevgilim, cananım mənim.*
*Uzaqdaqn -uzağa sən məni dinlə*
*Ucalır avazım hey pillə-pillə.*
*Yayınmır düşmənə atdığım güllə,*
*Əyilməz ərlərdir həyanım mənim!*



**Aşıq İdris, həyat yoldaşı Zərnişan xanım, dayısı oğlu Heydər və onun həyat yoldaşı Göyçək xanım**

Aşıq İdris çox vaxt konsertlərə və toylara balaban ifaçısı Cabbar Fərzəliyev, dəf ifaçısı Xanbaba Əliyevlə gedərmiş.

Arayışlarda olan məlumatlar və ailə arxivimizdə qorunub saxlanan şəkil də bunu təsdiqləyir. Bu arayışların arasında 1939-cu il 11-ci ay tarixli sənəd çox maraqlıdır. Orada yazılır:"Basarkeçər rayonunun maarif şöbəsinin nəzdində təşkil olunmuş aşıqlar təşkilatının heyət üzvləri və təşkilat üzvləri Aşıqlar təşkilatının sədri İdris Məhərrəmov təşkilatın sədrinin müavini Bəhmən Qarayev, üzvləri Nəcəf Məmmədov, Talıb Məmmədov, Ziyad Nadirov.

**Təşkilat üzvləri:**
*Hüseyn İskəndərov*
*Yunus (Babacan)*
*Kərəm Vəliyev (Pənbək)*
*Səyyaf Əvəzov*
*Lətif Hüseynov (Qaraqoyunlu)*
*Cahad Nağıyev*
*Qabil Vəliyev (Zərzəbilli)*
*Cabbar Fərzəliyev (Kəlbəcər)*
*Xanbaba Əliyev*
*Mikayıl Nəsibov*
*Xudu Namazov (Sorucan)*
*Nağı Bədəlov (Kəsəmən)*
*Qərib İsmayılov (Zod)*

Aşıq İdris haqqında olan 1938-1941-ci illəri əhatə edən Azərbaycan, rus, erməni dilində olan arayışlardan əldə etdiyimiz məlumata görə, Aşıq İdris Azərbaycanın şəhər, rayon, kəndlərini qarış-qarış gəzərək zəhmətkeş xalq qarşısında konsertlər verib.

Bu arayışlardakı maraqlı faktlardan biri də odur ki, orada qeyd olunan yer adları azərbaycan adlarıdır. Lakin bədnam qonşularımız sonradan o yer adlarını dəyişib erməniləşdiriblər.

Bu arayışlardan bizə məlum olur ki, o ən çox Kəlbəcər, Qubadlı, Laçın, Zəngibasar, Tərtər, Goranboy, Ağcabədi və s. rayonlarda olub. Həmçinin bu sənədlər onun Basarkeçər rayonunun aşıqlar birliyinin sədri olmasını, incəsənət xadimi fəxri adının verilməsini də təsdiqləyir. Aşıq İdrisin vala yazılmış səsi də olduğunu söyləyirlər. Rəhmətlik atam Bahadur müəllim söyləyirdi ki: "uşaq yaşlarımda evimizdə qrammafonda atamın səsi yazılmış vala dəfələrlə qulaq asmışam". Biz səsyazma arxivinə müraciət etdik.Təəssüf ki, nə bu val, nə də Aşıq İdris hqqında heç bir məlumat əldə edə bilmədik.

Nənəm Zərnişan xanımın söylədiyinə görə, babam Aşıq İdris tez-tez İrana, Türkiyəyə də səfər edərmiş. Bu ölkələrdə tikilən evləri görən babamız ilk dəfə olaraq Göyçə mahalında, yeni Zərkənddə ikimərtəbəli daş ev tikdirib. Təəssüflər ki, indi bu evlərdə bədnam qonşularımız yaşayır. Evin yerləşdiyi ərazini isə kilsə ediblər.

Aşıq İdrisin 2 qardaşı olub: Yunus və Ələs.Qardaşı Yunus da İkinci Dünya müharibəsinə gedib və 1943-cü il fevral ayında itkin düşüb.

Aşıq İdrisin 7 övladı olub: Maral adlı bir qızı, Şəmdin, Xasay, Surxay, Bahadur, Qəzənfər, Məmməd adlı 6 oğlu . Qızı Maral atasının qara xəbərini eşitdikdə, bu acı xəbərə dözməyib 12 yaşında vəfat edib. Həyat yoldaşı Zərnişan xanım altı oğlunu minbir əzabla böyüdüb, oxudub, evləndirib, oğul-uşaq sahibi edib, oğlanlarından ikisinə ali təhsil verib. Oğlu Bahadur əvvəl Politexnik texnikumunun, sonra isə Politexnik universitetinin mexanika bölməsinin "Avtonəqliyyat" fakultəsini, kiçik oğlu Qəzənfər isə BDU-nun geologiya fakultəsini bitirib. Oğlanlarından Surxay və Qəzənfər sazda, Bahadur isə qarmonda həvəskar ifaçı kimi çalmağı bacarırdı. Bahadur aşıq havalarını qarmonda özünə məxsus gözəl bir tərzdə ifa edərdi. Bahadurun riyaziyyat elminə həddsiz dərəcədə marağı 1977-ci ildən başlayaraq "Riyaziyyatdan şifahi vurma qaydaları" əsəri üzərində işləyərək 1987-ci ildə "Maarif" nəşriyyatı tərəfindən "Riyaziyyatdan şifahi vurma qaydaları" adlı ilk kitabını nəşr etdirib. 2002-ci ildə isə bu əsərini daha da təkmilləşdirib, ikinci bir kitabını da nəşr etdirib. Amansız ölüm Bahadur müəllimin arzularını yarımçıq qoydu. Yazdığı bu əsəri müdafiə etmək ərəfəsində vaxtsız (2002-ci il 8 dekabr) dünyasını dəyişdi.

Bahadur müəllimin oğlu Natiq isə sazda mahir ifaçı olmasa da, bu gün nağarada mahir ifaçılardan biridir. 2001-ci ildə o, beş nəfərdən ibarət "Natiq Ritm Qrupu"-nu yaratdı və bununla da yeni azərbaycan nağarasının və rtmlərinin əsasını qoydu. Azərbaycan qədim musiqi aləti olan nağaranı həm milli, həm də beynəlxalq rtm alətləri ilə sintez edərək dünya miqyasında tanınmasına nail oldu. Azərbaycan rtmlərinin sayını dəfələrlə artmasında böyük zəhməti oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 17 sentyabr 2007-ci ildə əməkdar, 27 may 2018-ci ildə isə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının "Xalq Artisti" fəxri adına layiq görüldü.

Bəşər övladı həmişə öz keçmişinə,yaddaşına qırılmaz tellərlə bağlı olub. Bu indi də belədir, həmişə də belə olacaq.Yaddaşı olmayan xalqın heç vədə gələcəyi də ola bilməz. Yaddaş dünənlə bu gün, başqa sözlə desək, gedənlə gələn arasında körpüdür - mənəvi körpü. Vətən uğrunda canından keçən insanların xatirəsini yaşatmaq bizim üçün müqəddəs bir işdir. Bu insanların ruhu qarşısında baş əyir, ruhlarına Uca Yaradandan rəhmət diləyirik.

***Rübabə ŞİRİNOVA***
***Aşıq İdrisin nəvəsi, AMEA Əlyazmalar İnstitutu, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***